# "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK" VƏ MÜASİR ŞƏRAİTDƏ ƏMƏK BAZARINDA "YAŞIL MƏŞĞULLUQ" PROBLEMİ

**Nicat Muradlı**

*Bakı Regional Məşğulluq Filialı*
*rashad_muradov@hotmail.com*

Bəşəriyyətin onu əhatə edən təbii mühitlə qarşılıqlı münasibətləri müasir dövrün ən aktual problemlərindən biridir. İnsanın dəyişdirici fəaliyyəti nəticəsində havanın, torpağın və suyun çirkləndirilməsi, heyvanların və bitkilərin məhv edilməsi XX əsrin ikinci yarısından başlayaraq təhlükəli hədlərə gəlib çatmış və planetdə yaranmış ekoloji vəziyyət iqtisadi proseslərə ziddiyətli təsir göstərmişdir.

Bir tərəfdən, müxtəlif istehsal sahələri üçün tullantısız texnologiyaların və təmizləyici avadanlıqların, habelə istehsalat və məişət tullantılarının utilizasiyası üzrə yeni üzulların işlənib hazırlanması, ekoloji cəhətdən təmiz ərzaq və içməli suyun istehsalı, yaşayış məntəqələrinin yaradılması və ətraf mühitin qorunması üzrə tədbirlərin maliyyələşdirilməsi üçün yeni imkanlar yaranmışdır. Digər tərəfdən isə, bir çox biznes strukturlarına və sahibkarlara müvafiq dövlət orqanları və ya ictimai təşkilatlar tərəfindən ətraf mühitin çirkləndirilməsi və təbiətə ekoloji zərər vurulması hallarına görə böyük məbləğdə cərimə ödəyərək, mövcud ekoloji standartların nəzərə alınması ilə istehsal texnologiyalarının modernləşdirilməsi və cəmiyyətin nəzərində öz şirkətinin və məhsullarının cəlbedici "ekoloji imicini" yaratmaq tapşırığı verilmişdir.

Məhz bu baxımdan qeyd edə bilərik ki, son illərdə "yaşıl" iqtisadiyyat sırf nəzəri ideyadan artıq praktiki ölçüyə malik olan bir fəaliyyət proqramına çevrilməkdədir. Bəzi ölkələrdə və şirkətlərdə bu daha yaxşı, bəzilərində isə daha pis alınsa da, bir şey artıq hamıya aydındır ki, "yaşıl" idarəetmə üsullarına sistemli yanaşmadan, maliyyə sektorunda aparılan islahatları sosial - ekoloji istiqamətə yönləndirmədən, ekoloji və iqlim izi amillərini nəzərə almadan zəmanəmizin bir sıra problemlərini, o cümlədən iqlim böhranını həll etmək mümkün olmayacaqdır.

Məhz bu məsələlər bu gün bizi məcbur edir ki, müasir əmək bazarında əhalinin məşğulluğunu yeni meyllər əsasında, yəni "yaşıl" iqtisadiyyat prinsipləri əsasında təşviq edək. Bu cür məşğulluq siyasətinin təşviqinin əsas məqsədi insan fəaliyyətinin ətraf mühitə mənfi təsirlərini azaltmağa və ekoloji vəziyyətin yaxşılaşdırılmasına kömək edən yeni "yaşıl" iş yerləri yaratmaqla ekoloji yönümlü əmək bazarının formalaşdırılmasına nail olmaqdır.

"Yaşıl iş yeri" terminindən ekoloji yönümlü iqtisadiyyatın formalaşması şəraitində fəaliyyətdə olan əmək bazarında aparılan məşğulluq siyasətinin təhlilində, məşğulluğun dinamikasının və strukturunun monitorinqində və s. hallarda istifadə oluna bilər. Belə ki, BMT-nin Ətraf Mühitin İnkişafı üzrə Beynəlxalq Komissiyasının (ƏMİBK) hesabatında "yaşıl iş yeri", ətraf mühitin əhəmiyyətli dərəcədə qorunmasına və ya bərpasına töhfə verə biləcək kənd təsərrüfatında, emal sənayesində, elmi tədqiqatlarda və işləmələrdə, inzibati fəaliyyət növlərində mövcud olan iş yerləri kimi müəyyən edilmişdir. Bunlar, məsələn, ekosistemlərin və biomüxtəlifliyin qorunmasına, enerji, material və su istehlakının azaldılmasına, zərərli qazların atmosferə aşağı səviyyədə buraxılmasına, bütün tullantıların və çirklənmənin minimuma endirilməsinə kömək edən işlərdir. Eyni zamanda, yaşıl iş yerləri aşağıdakı meyarlara cavab verməlidir: a) layiqli əmək haqqı; b) təhlükəsiz iş şəraiti; c) karyera yüksəlişinin təmin olunması; d) işçilərin hüquqlarına riayət edilməsi.

Aparılan təhlillər nəticəsində yaşıl iş yerlərinin qiymətləndirilməsi və uçotuna iki əsas yanaşma fərqləndirilə bilər: 1) istehsalın həcminə görə və 2) istehsal prosesinin formasına görə. Birinci halda, yaşıl iş yerlərinin sayı müəssisənin bütün istehsalının ümumi həcmində ekoloji cəhətdən təmiz məhsulların payına dair məlumatlar əsasında hesablanır. Bununla belə, müəssisələrdə yaşıl iş yerlərinin sayının uçotu üçün ən çox tələb olunan üsul burada məhsul istehsalında ekoloji cəhətdən təmiz, resurslara qənaət edən texnologiyaların tətbiq edilməsi üzrə iş yerlərinin sayının hesablanması ilə əlaqədardır. Nəticədə, dünyada yaşıl iş yerlərinin qiymətləndirilməsinə və uçotuna vahid yanaşmanın mövcud olmadığını görürük ki, bu da cəmiyyətin davamlı inkişafı maraqları naminə ekoloji yönümlü əmək bazarının inkişafı üçün beynəlxalq statistik bazanın formalaşdırılmasını çətinləşdirir.

Hazırda bütün dünyada müxtəlif iqtisadi fəaliyyət növlərində əhalinin yaşıl məşğulluğu siyasəti fəal surətdə həyata keçirilir. Məsələn, statistik məlumatlardan görmək olar ki, hazırda 2,8 milyondan çox insan bərpa olunan enerji sektorunda birbaşa və ya dolayı yolla məşğuldur.Hazırda Braziliya, ABŞ və Çində

təxminən 12 milyon işçi tullantıların təkrar emalı və utilizasiyasında çalışır və bu sahədə məşğulluğun səviyyəsi artmağa davam edəcəkdir.

Azərbaycan Respublikasında istehsal və istehlak tullantılarının emalı və zərərsizləşdirilməsi sənayesinin inkişaf etdirilməsi 2019-cu ildə Nazirlər Kabineti tərəfindən qəbul edilmiş "2030-cu ilə qədər olan dövr üçün istehlak tullantılarının emalı, utilizasiyası və zərərsizləşdirilməsi üzrə sənayenin inkişafına dair Strategiya"-ya uyğun olaraq həyata keçirilərək bu sahədə yüksək texnologiyalı müəssisələrin istifadəyə verilməsini və ətraf mühitə olan yükü əhəmiyyətli dərəcədə azaldacaq yeni iş yerlərinin açılmasını təmin edəcəkdir.

Azərbaycan Respublikasında ekoloji yönümlü əmək bazarında, o cümlədən ekoloji mallar və xidmətlər sahəsində artım potensialı mövcuddur, lakin hazırda Azərbaycan Respublikasında yaşıl idarəetmə növləri hələ də zəif inkişaf etmişdir. Azərbaycan Respublikasında yaşıl məşğulluğun təmin edilməsi üçün əmək bazarında aydın fəaliyyət planının qəbul edilməsi, o cümlədən belə inkişafı xarakterizə edən göstəricilərin müəyyənləşdirilməsi, yaşıl iş yerlərinin yaradılması üzrə prioritet fəaliyyətlərin ayrılması zəruridir.

Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, yaxın illərdə yaşıl iqtisadiyyat sayəsində dünyada 15 milyondan 60 milyona qədər iş yeri yaradıla bilər ki, bu da işsizliyi azaltmaqla yanaşı, ətraf mühitin qorunmasına da kömək edəcəkdir.

Yaşıl iqtisadiyyatın artımının və yeni iş yerlərinin yaradılmasının ümumi fonunda ayrı-ayrı ölkələrdə bu proseslərin xüsusiyyətlərini ayırd etmək olar. Yaşıl iş yerlərinin aktiv artımı istiqamətlərinə uyğun olaraq ölkələri aşağıdakı qaydada təsnifləşdirmək olar: bərpa olunan enerjinin inkişafı, ekoloji cəhətdən təmiz nəqliyyat növlərinin istehsalı və təşviqi, yaşıl tikinti, meşələrin bərpası (Avstraliya, Braziliya, İndoneziya); yaşıl enerji, ətraf mühitin bərpası, ekoloji biznesin inkişafı (ABŞ, Aİ); bərpa olunan enerji, zədələnmiş ərazilərin bərpası, meşələrin bərpası (Çin); ekoloji kənd təsərrüfatı məhsullarının istehsalı, ekoturizm (Tailand və Cənub-Şərqi Asiyanın digər ölkələri), eko-texnologiyalar bazarında istehsal və xidmətlərin göstərilməsi (Almaniya və digər Aİ ölkələri). Azərbaycan Respublikasında belə iş yerləri ətraf mühitin idarə edilməsi, enerjiyə qənaət, ətraf mühitə dəymiş zərərin aradan qaldırılması, tullantıların emalı sahələrində yaradıla bilər.

Yaşıl məşğulluq siyasətinin xüsusiyyəti ondan ibarətdir ki, o, məşğulluq siyasətinin ənənəvi sahələrini, məsələn, işsizliyin azaldılması, özünüməşğulluğun təşviqi və s. əhatə etməklə həm də ətraf mühitə mənfi təsirlərin azaldılması, yaşıl peşələrin hazırlanması və s. üzrə yeni sahələriin inkişafını həyata keçirir. Buna görə də yaşıl məşğulluq siyasətinin istiqamətləri müəyyən edilərkən, əmək bazarının və ekoloji yönümlü iqtisadiyyatın inkişafı məsələlərinin bir-biri ilə sıx bağlı olması lazım olan genişləndirilmiş yanaşmadan istifadə etmək təklif olunur.

Fikrimizcə, yaşıl iş yerlərinin yaradılması üçün iqtisadi fəaliyyətin əsas növlərinin müəyyən edilməsinin əsas meyarları kimi aşağıdakıları ayırmaq olar: a) ətraf mühitə mənfi təsirin azaldılması; b) iqtisadi fəaliyyətin digər növlərində yaşıl iş yerlərinin və xidmət yerlərinin yaradılmasına kömək etmək; c) ekoloji yönümlü yeni innovativ məhsulun, onların iqtisadi fəaliyyətin digər növlərində istifadəsi üçün istehsal vasitələrinin yaradılması. Bu meyarlara uyğun olaraq ekoloji amillər nəzərə alınmaqla Azərbaycan Respublikasında iş yerlərinin yaradılması üçün əsas iqtisadi fəaliyyət növləri müəyyən edilə bilər.